**Bakı Dövlət Universiteti**

**Tarix fakültəsi**

**Tələbə Elmi Cəmiyyətinin Elmi Hesabatı**

**2023**

**23.02.2023**

23 fevral 2023 tarixində baş tutan dəyirmi masamızda tarix elmləri namizədi, BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti Boran Əziz müəllifi olduğu əsərləri tələbə və müəllim heyətiylə tanış edərək Xocalı soyqırımının səbəbləri, həyata keçirilmə üsulları və nəticələri barədə istinadlı və müfəssəl məlumatlar verib. Dəyirmi masada müəllimlər, dosentlər, magistr və bakalavr tələbələri iştirak ediblər.

Boran müəllimin sözləri ilə "Xocalı" qurbanlarını yad edirik: "İnsanların hamısı bir gün bu dünyadan köçəcək. Amma nə xoş o kəslərə ki, bir amal, bir məqsəd uğrunda canlarından keçirlər. Baxın Xocalı Şəhidləri də daim qəlblərdə qalacaqlar, unudulmayacaqlar."

**20.04.2023**

20 aprel 2023-cü ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Heydər Əliyev ili" tədbirlər silsiləsi çərçivəsində "Səfəvilərin dövlətçilik tariximizdə rolu" adlı elmi seminar keçirilib.

Tarix fakültəsinin TEC üzvlərinin, bakalavr, magistr və dissertantlarının və müəllim heyətinin də iştirak etdiyi elmi seminarda maraqlı müzakirələr və fikir mübadiləsi aparılmışdır. Müəllimlərdən Məmmədağa Baxışov, Anar Həmidov və

Suğra Orucova tələbələrin çıxışlarını bəyənərək əlavələrini etmiş və verilən suallara öz fikirlərini bildirmişlər.

Tarix fakültəsi TEC sədri Nurəli Məmmədovun moderatorluğu ilə keçən elmi seminarda mövzunu əhatə edən 4 məruzə dinlənildi.

Açılış nitqində fakültənin TEC rəhbəri, t.ü.f.d. Hicran Mahmudova Azərbaycanın dövlətçilik tarixi və Səfəvi dövlətinin tarixi əhəmiyyətini iştirakçılarla bölüşmüşdür.

Bakı Dövlət Universiteti Tarix fakültəsinin III kurs tələbəsi Eynullayev Eynulla "Şah I Abbas və onun həyata keçirdiyi islahatlar" adlı məruzəsində dövlətçilik baxımdan əhəmiyyətli nüanslara toxunaraq islahatların mahiyyətini iştirakçılara çatdırmışdır.

Tarix fakültəsinin III kurs tələbəsi Tural Qaffarov "Səfəvilərin əzəmətinin sonuncu səhifəsi-Şah II Abbas" adlı məruzəsində Şah II Abbas və dövrün mahiyyət və xarakterini açaraq dövrün müəllifləri ilə müasir dövr məlumatlarını sintezli şəkildə müqayisə etmişdir. Fakültənin digər bir III kurs tələbəsi Murad Böyükxanov "Səfəvilər dövründə mədəniyyət" mövzusu ilə seminar mövzusuna mədəni-ictimai aspektdən baxılmasına imkan yaratmışdır. Son olaraq Tarix fakültəsi magistr tələbəsi Anar Can Kıtay "Azərbaycan tarixi terminalogiyasında dövlətin adlandırma məsələsi" adlı məruzəsində olduqca maraqlı və tədqiqata meyilli mövzunun açılmasına səbəb olan faktları ortaya qoydu və iştirakçılar tərəfindən olduqca maraqla qarşılandı və çox bəyənildi.

**22.05.2023**

22 may 2023-cü ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti qurucuları - tarixə işıq salanlar" adlı elmi seminar keçirilib.

Elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova, TEC rəhbəri t.ü.f.d. Hicran Mahmudova, Avropa və Amerikanın müasir və yeni tarixi kafedrasının dosenti Məmmədağa Baxışov və tarixşünaslıq, mənbəşünaslıq və metodika kafedrasının dosenti Nurlan Abbasov AXC qurucularının pasionar fəaliyyətlərini vurğulayaraq dövrün mahiyyət və önəmini gənclərlə bölüşmüşlər.

Fakültənin III kurs tələbələri Tural Qaffarov "Azərbaycan Cümhuriyyəti tarixində iz qoymuş Şəki bölgəsinin ictimai-siyasi xadimləri" adlı məruzəsində Mürsəl bəy Sədrəddinbəyov, Həbibi xan Şəkinski, Abdulla bəy Əfəndizadə haqqında, Nigar Əliyeva "Fətəli xan Xoyski" haqqında, Səma Camalova isə "Ağa Aşurov" adlı məruzəsində AXC hökümətinin ilk müstəqil poçt-teleqraf naziri olmuş Ağa Hacıaslan oğlu Aşurovun həyat və fəaliyyəti haqqında məlumatlarını dinləyicilərə çatdırmışlar. II kurs tələbələri İsmayıl Səmədli "Əlimərdan bəy Topçubaşov,

Rəmzi Səfərli isə “Xosrov bəy Sultanov” mövzuları ilə şəxsiyyətlərin həyat və fəaliyyətini maraqlı təqdimatlarla dinləyicilərə çatdırmışlar

**20.09.2023**

20 sentyabr 2023-cü ildə TEC idarə heyətinin tərkibinin dəyişdirilməsi və yeni tədris ilindəki fəaliyyət planın müzakirəsi üçün TEC`in qapalı iclası keçirilmişdir.

**27.09.2023**

27 sentyabr 2023-cü ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Zəfərin 44 günü-Milli birlik" adlı dəyirmi masa keçirilib.

Tədbirin açılışı ilə Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və iştirakçıların nitqləri dinlənilərək uğurla başa çatmışdır.

TEC idarə heyəti və üzvlərin iştirakı ilə baş tutan dəyirmi masada I və II Qarabağ müharibəsinin müqayisəli təhlili, ölkə suverenliyinə olan təhdidlər, xarici qüvvələrin təsiri, müasir beynəlxalq siyasi düzən, beynəlxalq prinsiplər, milli birlik və b. mövzularda maraqlı müzakirələr aparıldı.

**20.10.2023**

20 oktyabr 2023-cü ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Müstəqillik  tariximizin şərəf salnaməsi" adlı elmi seminar keçirilib.

İki hissəli seminarda ilk öncə iştirakçıların mövzu ilə bağlı fikirləri dinlənildi. Daha sonra isə mövzu üzrə digər müzakirələr aparıldı. İdarə heyəti və üzvlərin də iştirak etdiyi seminarda dövrün siyasi hadisələri, müstəqilliyə aparan zəmin, tarixi şərait barədə də diskussiya keçirildi.

**27.10.2023**

27 oktyabr .2023-cü ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Türkiyənin dünya siyasətində yeri" mövzusunda dəyirmi masa keçirilmişdir.

Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin dövlət himnləri səsləndirilmiş, hər iki dövlətin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tarix fakültəsi Türk xalqları tarixi kafedrasının dosenti Sevinc Ruintən "100-cü ilində Türkiyə Cümhuriyyəti: xarici siyasəti" mövzusu ilə çıxış etmişdir.

Tələbələrin sualları cavablandırılıb və maraqlı müzakirələr aparılıb. Sonda xüsusi qonaqlara - Türk xalqları tarixi kafedrasının doktorantları Fatma Betül Aydemir Baş və Oğuz Kağan Bayrakdar'a söz verilmişdir.

**21.12.2023**

21 dekabr 2023-cü ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Heydər Əliyev ili"nə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilmişdir.

Oyunun qalibi "CoupDeGrace" komandası, II yerin sahibi "Evrika" komandası, III yerin sahibi isə "Gənc Tarixçilər" komandası olmuşdur.